

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 3 (23.415)

*9 yanvar 2020-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Anar Quliyevi Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar qəbul edib.

Görüşdə çıxış edən Prezident İlham Əliyev deyib: – Mən sizi Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri vəzifəsinə təyin edirəm. Siz hazırda sədrin birinci müavini vəzifəsində çalışırsınız. Bu, sizə göstərilən böyük etimad və sizin üçün böyük məsuliyyətdir. Çünki mənim tapşırığımla Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin funksiyaları genişləndirilib. Hazırda bu komitənin şəhərsalma və memarlıq prinsiplərini müasir əsaslarla təşkil etmək üçün xüsusi rolu və əhəmiyyəti vardır.

Ölkə başçısı komitənin son vaxtlardakı fəaliyyətini yüksək qiymətləndirdiyini qeyd edib. Vurğulayıb ki, bu məsuliyyət dərk edilməli, ölkəmizin hər bir yerində bütün inşaat işləri müasir şəhərsalma qaydalarına uyğun aparılmalıdır.

Anar Quliyev cənab Prezidentə ona göstərdiyi yüksək etimada görə dərin təşəkkürünü bildirib və etimadı doğrultmaq üçün əlindən gələni edəcəyini, verilən göstərişləri yerinə yetirmək üçün komitənin bütün potensialını səfərbər etməyə çalışacağını vurğulayıb.

Prezident İlham Əliyev Anar Quliyevin bu yüksək etimadı doğruldacağına və qarşıya qoyulan prinsiplərə gündəlik işdə əməl edəcəyinə əminliyini bildirib.



## 3-cü Sərhəd Zastavası üçün yeni xidmət və yaşayış kompleksi istifadəyə verilib



Yanvarın 8-də “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının 3-cü Sərhəd Zastavası üçün yeni xidmət və yaşayış kompleksi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

“Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının komandiri, general-mayor Niyaməddin Tağıyev Ali Məclisin Sədrinə raport vermişdir.

Ali Məclisin Sədri açılışı bildirən lenti kəsmişdir.

Bildirilmişdir ki, 3-cü Sərhəd Zastavası əsaslı şəkildə yenidən qurulmuşdur. Qərargah binasında əsgərlər üçün 48 yerlik yataqxana, subay zabitlər üçün istirahət yerləri, sinif otağı, silah, rabitə və digər xidməti otaqlar, yeməkxana, mətbəx və ərzaq anbarı yerləşir. Ərazidə sərhədçi ailələri üçün 12 mənzilli 2 mərtəbəli xidməti yaşayış binası, hamam-camaşırxana, qazanxana, əşya, ərzaq və silah anbarları, avtomobillər üçün 2 saxlanc yeri, xidməti heyvanlar üçün yardımçı bina və helikopter meydançası inşa edilmişdir. Yaşayış binalarındakı mənzillərin hər birinə mebel dəstləri, məişət əşyaları qoyulmuş və fərdi qızdırıcı ilə təmin edilmişdir.

Ali Məclisin Sədri sərhədçi ailələri ilə görüşmüş, onları xidməti yaşayış binasının istifadəyə verilməsi münasibətilə təbrik edərək demişdir: 3-cü Sərhəd Zastavasında sərhədçi ailələri üçün lazımi şərait yaradılmış, xidməti yaşayış binası tikilmişdir. Görülən işlərin nəticəsidir ki, zastavada həm hərbi xidmət hərtərəfli təşkil ediləcək, həm də zabit-gizir ailələrinin rahat yaşayışı təmin olunacaqdır. Əvvəlki dövrdə burada yaşayış üçün normal şərait yox idi. Ailələr çətinlik çəkirdi. Lakin bu gün – yeni ilin ilk günlərində hər cür şəraiti olan mənzillər sərhədçi ailələrinin istifadəsinə verilir. Yaradılan şəraitdən düzgün istifadə olunmalı, tikilənlər qorunub saxlanılmalıdır ki, növbəti yerdəyişmələr zamanı gələn ailələr də mənzillərdən rahat istifadə etsinlər.



Ali Məclisin Sədri sərhədçi ailələrini yeni ildə müasir xidməti mənzillərlə təmin olunmaları münasibətilə bir daha təbrik etmiş, onlara rahat və firavan həyat arzulamışdır.

Sərhədçi ailələri adından çıxış edən Dilbər Hacızadə göstərilən qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Ali Məclisin Sədri uşaqlara hədiyyələr təqdim etmişdir.



Uşaqlardan Damla Hacızadə, Taleh Hüseynov və Daniz Hacızadə vətənpərvərlik ruhunda şeirlər söyləmişlər.

Sonra şəxsi heyətlə görüş olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov sərhədçiləri salamlamış, 3-cü Sərhəd Zastavası üçün yeni xidməti və yaşayış kompleksinin istifadəyə verilməsi münasibətilə şəxsi heyəti təbrik edərək demişdir: Bu gün “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının 3-cü Sərhəd Zastavasının tarixində yeni bir dövr başlayır. Zastava əsaslı yenidənqurmadan sonra istifadəyə verilir. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***“Azərbaycanın dövlət sərhədi Azərbaycanın müstəqilliyini, suverenliyini nümayiş etdirən amildir”.*** Bu gün müstəqil Azərbaycanda Sərhəd Qoşunları fəaliyyət göstərir və ölkəmizin sərhədləri etibarlı qorunur.



Ali Məclisin Sədri demişdir: 3-cü Sərhəd Zastavası 1981-ci ildə – Sovetlər Birliyi dövründə yaradılmışdır. Üç ölkənin sərhədinin kəsişdiyi ərazidə yerləşən zastavada heç vaxt bu cür xidməti şərait olmamışdır. Azərbaycan müstəqillik qazandıqdan sonra ərazinin vacibliyi nəzərə alınmış, zastavanın fəaliyyətinin təmin olunması sahəsində işlər görülmüşdür. Sovetlər Birliyi dövründə Sədərək rayonu ərazisindəki birinci sərhəd zastavası və Ordubad istiqamətindəki iki zastava Naxçıvan Sərhəd Dəstəsinə tabe deyildi. Lakin ölkəmiz müstəqillik əldə etdikdən sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyən ümummilli liderimiz Heydər Əliyevin səyləri nəticəsində Ordubad və Sədərək istiqamətlərində olan zastavalar Naxçıvan Sərhəd

*Ardı 2-ci səhifədə*





Dəstəsinin tabeliyinə verildi və onlar üçün xidməti şərait yaradıldı.

Ali Məclisin Sədri demişdir: Müstəqillik dövründə Azərbaycanda sərhəd qoşunlarının yaradılmasına ilk dəfə Naxçıvan Muxtar



Respublikasında başlanılmışdır. Müstəqilliyin ilk illərində ölkəyə rəhbərlik edənlər muxtar respublikada yerləşən Sovet ordusunun hərbi birləşmələrinin ərazidən çıxarılması ilə əlaqədar silah-sursatın 50 faizinin onlara qaytarılması haqqında sərəncam vermişdi. Lakin ümummilli liderimiz Heydər Əliyev Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən Sovet ordu, birləşmə və hissələrinin bütün



silah-sursatının muxtar respublikada saxlanması haqqında qərar qəbul etmiş və buna nail olmuşdur. 1992-ci ilin avqust ayında Naxçıvandakı sərhəd dəstəsində ilk dəfə müstəqil Azərbaycanın üçrəngli bayrağı qaldırılmış və ölkəmizdə ilk sərhəd dəstəsinin yaradılması elan olunmuşdur. Ötən dövrdə Naxçıvan Sərhəd Dəstəsi şərəfli yol keçmiş, 2004-cü ildə “Naxçıvan” Sərhəd Diviziyasına, 2015-ci ildə isə “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasına çevrilmişdir. Sərhəd zastavalarının fəaliyyəti üçün də lazımi tədbirlər görülmüş, yeni xidməti və yaşayış binaları tikilmişdir. 2019-cu ildə “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının 15-ci Sərhəd Zastavası yenidən qurulmuşdur. Bu gün isə 3-cü Sərhəd Zastavası tam müasir tələblərə uyğun səviyyədə istifadəyə verilir.

“Sərhəd ölkə üçün vacib sahə, onu qorumaq isə şərəfli peşədir”, – deyən Ali Məclisin Sədri yaradılan şəraitdən səmərəli istifadə olunacağına əminliyini bildirmiş, şəxsi heyətə xidmətdə uğurlar arzulamışdır.

“Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının komandiri, general-mayor Niyaməddin Tağıyev çıxış edərək demişdir: “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının formalaşması və inkişafı istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir. Diviziyanın maddi-texniki bazası möhkəmləndirilmiş, hərbi qulluqçuların xidmət və məişət şəraiti yaxşılaşdırılmışdır. Şəxsi heyət göstərilən qayğı və yaradılan şəraitdən səmərəli istifadə edərək bundan sonra da sərhədlərin etibarlı mühafizəsini təmin edəcək, verilən tapşırıqların icrasını layiqincə yerinə yetirəcəkdir. Niyaməddin Tağıyev yaradılan şəraitə görə şəxsi heyət adından minnətdarlıq etmişdir.

Əsgər Namiq Bağırov çıxış edərək sərhədlərimizi etibarlı qoruyacaqlarına söz vermişdir.

Ali Məclisin Sədri demişdir: Ötən dövrdə “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasında



xidmət edən əsgər və zabitlər üzərlərinə düşən şərəfli vəzifəni layiqincə yerinə yetirmiş, sərhəd pozucularına qarşı qəhrəmancasına mübarizə aparmışlar. 3-cü Sərhəd Zastavasının adını daşıdığı Natiq Xəlilov da mərd, igid sərhədçi olmuşdur. O, 1995-ci ildə bu ərazini qanunsuz keçmək istəyən silahlı dəstələrlə



mübarizədə həlak olmuş və adı bu zastavaya verilmişdir. Həmçinin “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasında xidməti vəzifələrini layiqincə yerinə yetirən əsgər, çavuş, gizir və zabitlər yüksək dövlət mükafatlarına layiq görülmüşlər. Ölkə Prezidentinin 2019-cu il 16 avqust tarixli müvafiq Sərəncamı ilə “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının komandiri də 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif olunmuşdur.

Ali Məclisin Sədri 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordenini “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının komandiri, general-mayor Niyaməddin Tağıyevə təqdim etmişdir.

Şəxsi heyət “Hamı bir nəfər, bir nəfər hamı üçün” şüarını səsləndirmişdir.

Sərhəd zastavasının ərazisində video-kamera nəzarət sistemi quraşdırılmış, sıra meydanı, idman və təlim şəhərciyi, atəş hazırlığı sahəsi, futbol və voleybol meydançaları yaradılmışdır. Bundan başqa, uşaqlar üçün əyləncə qurğuları quraşdırılmış, geniş abadlıq işləri aparılmış, yaşıllıq salınmış, 4 kilometr məsafədən qaz və 1450 metr su xətti çəkilmişdir.

Gətirilmiş ərzaq məhsulları zastavanın anbarına təhvil verilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Tədbir keçirilib

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyada keçirilən kollegiya iclasını komissiyanın sədri İsmayıl Qəribli açaraq bildirib ki, 2019-cu il ərzində dövlət qulluğuna dair qanunvericiliyin dövlət orqanlarında tətbiqinə nəzarət edilib, 6 dövlət orqanının qanunvericiliyə uyğun olmayan 7 qərarı ləğv etdirilib.

Qeyd edilib ki, 2019-cu il ərzində dövlət qulluğuna, hüquq-mühafizə orqanlarına, ümumi təhsil və musiqi



təhsili müəssisələrinə işə qəbul üçün Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən keçirilmiş 11 test imtahanında 2391 nəfər iştirak edib, 1053 nəfər müvafiq keçid balını toplayıb. İmtahanlarda uğur qazanmış 359 namizəd müvafiq vakant vəzifələrə təyin olunub. Hesabat dövründə dövlət qulluğuna, ümumtəhsil müəssisələrinə, həmçinin səfərbərlik, gömrük, vergi orqanlarına işə qəbul üçün təşkil olunmuş hazırlıq kurslarında, ümumilikdə, 376, keçirilmiş sınaq imtahanlarında isə 704 nəfər iştirak edib. İmtahanlarda şəffaflığın təmin edilməsi, namizədlərin bilik səviyyəsinin ətraflı yoxlanılması, qanunvericiliyə edilmiş əlavə və dəyişikliklərin test suallarında öz əksini tapması məqsədilə il ərzində 8494 sual test bankına işlənib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” 2019-cu il 3 aprel tarixli Sərəncamının icrasının təmin edilməsi məqsədilə Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən iki startap layihənin – *“DQMK.NMR.AZ”* mobil tətbiqinin və “Vətəndaşların dövlət qulluğuna qəbulunun stimullaşdırılması” layihəsinin təqdimat mərasimləri keçirilib.

Sonra məruzə ətrafında çıxışlar olub.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

# Ötən ilin yekunları və qarşıda duran vəzifələr müzakirə edilib



*Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində 2019-cu ilin yekunları və qarşıda duran vəzifələrə dair kollegiya iclası keçirilib.*

Təhsil naziri Rəhman Məmmədov iclasda məruzə edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində təhsil müəssisələrinin maddi-tədris bazasının möhkəmləndirilməsi sahəsində işlər 2019-cu ildə də davam etdirilib. Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının qiymətləndirilməsi aparılan müəllimlərin əməkhaqqının artırılması haqqında" 2019-cu il 20 iyun tarixli Sərəncamı ilə bu kateqoriyadan olan 7 mindən çox müəllimin əməkhaqqısı sentyabrın 1-dən 20 faiz artırılıb.

Təhsilin inkişafında xidmətlərinə görə müəllimlərimizin əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. Təhsil, idman və incəsənət sahəsində fərqlənən 3 şagird Ali Məclis Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülüb, onların adı "Gənc istedadların Qızıl kitabı"na yazılıb.

Vurğulanıb ki, hesabat dövründə 487 müəllim şahmat fənnini tədris etmək üçün sertifikatla təmin olunub, 170 gənc müəllim, 56 gənc kadr vakant vəzifələrə təyin edilib, müəllimlər diaqnostik qiymətləndirməyə cəlb edilib, onlar üçün ixtisasartırma kursları təşkil olunub.

"Pillə-pillə", "Debütdə buraxılmış səhvlərə aid 1000 oyun" və "Naxçıvan tarixi" dərslikləri nəşr edilib, nazirliyin yeni saytı istifadəyə verilib, təhsilin aktual problemlərinə həsr olunmuş konfranslar keçirilib.

2019-cu ildə ümumtəhsil məktəblərində mütaliə mədəniyyətinin formalaşdırılması məqsədilə "Mütaliə aylığı" və dram müsabiqəsi keçirilib, "Tariximizi qoruyaq və yaşadaq" aksiyasında 400-dən artıq maddi mədəniyyət nümunələri toplanıb, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində 12 adda innovativ dərnək yaradılıb, muxtar respublika, respublika və beynəlxalq səviyyəli olimpiadalar, müsabiqələr, "Vətənpərvərlik" mövzusunda açıq dərslər, şagirdlərin hərbi hissələrə tanışlıq ekskursiyaları təşkil olunub.

Diqqətə çatdırılıb ki, 2018-2019-cu tədris ilinin məzunlarından 13-ü qızıl, 16-sı gümüş medala, 45-i isə fərqlənmə attestatına, ümumi orta təhsil səviyyəsi üzrə isə 69 məzun fərqlənmə attestatına layiq görülüb. Onlardan 1720-si ali, 244-ü isə orta ixtisas təhsili müəssisələrinə qəbul olub. Ali məktəblərə qəbul olanlardan 1192-si ixtisas seçimi zamanı muxtar respublikanın ali təhsil müəssisələrinə üstünlük verib. 281 məzun qəbul imtahanlarında 500-700 arası bal toplayıb, onlardan 4-ü Prezident təqaüdünə layiq görülüb.

Sonra məruzə ətrafında çıxışlar olub.

**Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti**

* * *



Naxçıvan Şəhər İcra Hakimiyyətində keçirilən müşavirəni İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov açaraq məruzə edib. Bildirib ki, ötən il Naxçıvan şəhərində əhalinin mənzillərə olan tələbatının ödənilməsi məqsədilə yeni yaşayış binalarının tikintisinə, habelə mövcud binaların yenidən qurulmasına xüsusi diqqət yetirilib. Naxçıvan şəhərində 2 nömrəli uşaq bağçası, 5 nömrəli tam orta məktəb, Orta İxtisas Polis Məktəbi, Saat Meydanı və müxtəlif təyinatlı digər obyektlər istifadəyə verilib.

Qeyd olunub ki, sosial-iqtisadi həyatın bütün sahələrində qazanılan uğurlar, yeni iş yerlərinin açılması, əhalinin rifah halının yaxşılaşması demoqrafik vəziyyətə də müsbət təsir göstərib, Naxçıvan şəhərində əhalinin sayı artaraq 1 noyabr 2019-cu il tarixə 94 min 390 nəfər olub.

Vurğulanıb ki, 2019-cu ildə əmək pensiyalarının və müavinətlərin artırılması ilə bağlı ölkə başçısının imzaladığı sərəncamların icrası istiqamətində tədbirlər həyata keçirilib, vətəndaşların sosial rifahının yaxşılaşdırılması üçün müvafiq işlər görülüb. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 7 fevral tarixli Sərəncamına əsasən Naxçıvan şəhəri üzrə 10 min 954 əmək pensiyaçısının müavinəti 3 faiz indeksləşdirilərək artırılıb. "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası ilə əlaqədar Naxçıvan şəhərində 115-i qadın olmaqla, 803 işaxtaran vətəndaş qeydiyyata alınıb, 95 qadın, 234 gənc, 653 müxtəlif yaş qruplarına məxsus vətəndaş iqtisadiyyatın ayrı-ayrı sahələrində işlə təmin olunub. Keçirilən 2 əmək yarmarkasında 93, 1 səhiyyə yarmarkasında isə 14 nəfərə göndəriş verilib.

Diqqətə çatdırılıb ki, aqrar sahənin inkişafı da diqqət mərkəzində saxlanılıb. Bu isə kənd təsərrüfatı məhsullarının istehsal həcmini artırıb. 1 dekabr 2019-cu il tarixə 817 hektar buğda əkini sahəsindən 2451 ton, 218 hektar arpa əkini sahəsindən 560 ton məhsul yığılıb. 235 hektar bostan bitkiləri əkini sahəsindən 2 min 250 ton, 374 hektar tərəvəz bitkiləri sahəsindən 3 min 542 ton, 32 hektar kartof əkilmiş sahədən 360 ton, üzüm bağlarından 117 ton, meyvə bağlarından 1056 ton məhsul tədarük edilib. 1 dekabr 2019-cu il tarixə 887 hektar sahədə şum qaldırılıb, 769 hektar sahədə dən üçün payızlıq səpin aparılıb. Müvafiq dövlət proqramına uyğun olaraq 69,2 hektar yeni meyvə bağı salınıb, 18 hektarda bərpa işləri aparılıb.

Mirsənani Seyidov əminliyini bildirib ki, Naxçıvan şəhərində fəaliyyət göstərən idarə, müəssisə və təşkilatlar beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onbirinci sessiyasından irəli gələn vəzifələri layiqincə yerinə yetirəcək, şəhərin sosial-iqtisadi inkişafına 2020-ci ildə də öz töhfələrini verəcəklər.

Müşavirə məruzə ətrafında çıxışlarla davam edib.

* * *



Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyində keçirilən iclasda agentliyin baş direktoru Hikmət Əsgərov çıxış edərək beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onbirinci sessiyasından irəli gələn vəzifələr barədə məruzə edib. Bildirilib ki, 2019-cu ildə muxtar respublikada sığorta fəaliyyətinin daha da genişləndirilməsi, kütləviliyinin təmin olunması və vətəndaşlar arasında sığorta mədəniyyətinin inkişaf etdirilməsi üçün bir sıra işlər görülüb.

Qeyd olunub ki, sığorta işinin daha da təkmilləşdirilməsi məqsədilə ötən il agentlik tərəfindən muxtar respublikanın hər bir rayon (şəhər) İcra hakimiyyətləri ilə ayrılıqda "Sığorta fəaliyyəti, görülmüş işlər və qarşıda duran vəzifələrə dair" müşavirələr keçirilib. Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə sığorta olunmayan sürücülərin icbari sığortaya cəlb olunması məqsədilə agentliyin və Dövlət Yol Polisi İdarəsi əməkdaşlarının birgə reydləri təşkil olunub. Həmçinin sahibkarlara məxsus daşınmaz əmlakın icbari sığortası və onun istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortasının həyata keçirilməsi və sığorta etdirməyənlərin sığortaya cəlb olunması məqsədilə Fövqəladə Hallar Nazirliyinin əməkdaşları ilə birlikdə sahibkarlıq subyektlərində maarifləndirici söhbətlər aparılıb.

Diqqətə çatdırılıb ki, görülmüş işlərin nəticəsində ötən il agentlik üzrə hüquqi və fiziki şəxslərdən sığorta tədiyələrinin toplanması həcmi 2018-ci illə müqayisədə, ümumilikdə, 7,3 faiz artıb. Bu dövrdə avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə bağlanılmış müqavilələrin sayında 1330 ədəd, daşınmaz əmlakın icbari sığortası üzrə toplanmış sığorta tədiyələrinin həcmində 5,7 faiz, yaxud müqavilə sayında 1131 ədəd, daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası üzrə toplanmış sığorta tədiyələrinin həcmində 2,8 faiz artım olub. Əmlakın yanğın və digər risklərdən sığortası üzrə toplanmış tədiyələrin həcmi 9,3 faiz artıb.

İclasda kənd təsərrüfatı sığortasının əhəmiyyətindən də bəhs olunaraq bildirilib ki, muxtar respublikada kənd təsərrüfatı bitkiləri məhsullarının sığortası üzrə 1652 sığorta müqaviləsi bağlanılıb.

Qeyd olunub ki, istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta üzrə toplanmış tədiyələrin həcmi 27,6 faiz artıb.

Tədbirdə mövcud çatışmazlıqlara da toxunularaq sığorta tədiyələrinin toplanması işində rayon Dövlət Sığorta agentliklərinə qarşıdakı dövrdə daha səylə çalışmaq tapşırığı verilib.

Məruzə ətrafında müzakirələr olub.

* * *

Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onbirinci sessiyasından irəli gələn vəzifələrə və Naxçıvan Muxtar Respublikasının arxiv xidməti təşkilatlarının 2019-cu ildə gördükləri işlərə həsr olunan iclasda Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsinin rəisi Mehman Məmmədov çıxış edərək bildirib ki, 2019-cu ildə qarşıya qoyulmuş vəzifə və tapşırıqların icrası və illik iş planlarından irəli gələn vəzifələrin həyata keçirilməsi daim diqqət mərkəzində olub.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən 2018-ci il aprelin 12-dən başlayaraq Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsində arxiv işinin mövcud qanunvericiliyə və təlimatlara uyğun olaraq qurulması istiqamətində tədbirlər davam etdirilib. Kitabxananın fondu ekspertizadan keçirilərək siyasi əhəmiyyətini itirmiş və yararsız halda olan 601 adda 711 nüsxə kitab və 40 qovluq "Zaman" qəzeti məhv edilib.

Qeyd olunub ki, əməkdaşlar tərəfindən, ümumilikdə, 753 fond üzrə 429 min 537 saxlama vahidindən ibarət fond siyahılarının elektron kataloqu hazırlanıb. Axtarış proqramının hazırlanması istiqamətində işlər davam etdirilir.

2019-cu ildə idarənin məsul əməkdaşları muxtar respublika rayonlarının dövlət arxivlərində olub, sənədlərin elmi və əməli dəyərinin ekspertizasının aparılması, fond siyahılarının yenidən işlənməsi və arxiv işinin digər sahələri ilə bağlı lazımi əməli və metodik köməklik göstərilib.

Bildirilib ki, ötən il ərzində 8 min 60 vərəqə bərpa edilib, həmçinin bərpaya ehtiyacı olan 145 fotoşəkil bərpa edilib. Sənədlərin tikilməsi və cildlənməsi sahəsi üzrə illik plan 5000 saxlama vahidinə qarşı 5 min 185 saxlama vahidi tikilərək 103 faiz yerinə yetirilib. İllik iş planında 5000 saxlama vahidinin karton qutulara yığılması nəzərdə tutulub, 6 min 227 saxlama vahidi karton qutulara yığılaraq plana 124 faiz əməl olunub.

Kağız əsaslı sənədlərin mövcudluğu və vəziyyətinin yoxlanılması maddəsi üzrə illik plan 80 min saxlama vahidinə qarşı 90 min 592 saxlama vahidinin mövcudluğu yoxlanılıb. Həmçinin 6 min 500 plana qarşı 6 min 584 fotosənədin və 700 plana qarşı 379 kinolentin mövcudluğu da yoxlanılıb və müvafiq aktlar tərtib edilib.

2019-cu ildə qəbul mənbəyi olan idarə, təşkilatlardan və rayon dövlət arxivlərindən, ümumilikdə, 9 min 31 saxlama vahidi sənəd daimi mühafizə üçün Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinə qəbul edilib.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

**Xəbərlər şöbəsi**

* * *

*AMEA Naxçıvan Bölməsində ötən ilin yekunlarına və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunan tədbirdə bölmənin sədri, akademik İsmayıl Hacıyev çıxış edib. Bildirilib ki, muxtar respublika ərazisində etnoqrafik və epiqrafik, onomastik, dialektoloji və folklor, flora və fauna, o cümlədən qədim çap kitab və əlyazmaların toplanılması, elmi ekspedisiyaların aparılması, qədim yaşayış yerlərinin tarixinin öyrənilməsi, maddi mədəniyyət nümunələrinin elmi cəhətdən analiz edilməsi bölmə əməkdaşları qarşısında duran əsas vəzifələrdən olub.*

Akademik rəhbərlik etdiyi bölmənin tərkibindəki elmi-tədqiqat müəssisələrində 7 mövzuya daxil olan 37 işin 96 mərhələdə yerinə yetirildiyini deyib. Qeyd edib ki, bölmə əməkdaşları tərəfindən 18 monoqrafiya, 8 kitab, 1 kitabça, 3 metodik vəsait, 549 elmi məqalə, 225 konfrans materialı, 7 tezis olmaqla, ümumilikdə, 811 elmi əsər çap edilib, 4 buklet və bir xəritə tərtib olunub. Monoqrafiyalardan 4-ü, elmi məqalələrdən 73-ü, konfrans materiallarından 57-si, tezislərdən 1-i xaricdə nəşr olunub. Əməkdaşların impakt faktorlu jurnallarda 37 elmi məqaləsi işıq üzü görüb ki, bunlardan 10-u Clarivate Analytics siyahısına daxildir. Əsərlərə 287 istinad qeydə alınıb.



Akademik İsmayıl Hacıyev 2019-cu ildə bölmənin iki seriya üzrə "Elmi əsərlər" və "Axtarışlar" jurnallarının dörd nömrəsinin çapdan çıxdığını vurğulayıb. Bildirib ki, bölmədə, həmçinin "Naxçıvan Duzdağı" kitabı, "Nemətullah Naxçıvani: taleyi və sənəti" və "Ərtoğrol Cavid: taleyi və sənəti" məqalələr topluları çap olunub, "Naxçıvan tarixi mənbələrdə" kitabı hazırlanıb.

Diqqətə çatdırılıb ki, ötən il bölmə əməkdaşları respublika və beynəlxalq ekspedisiyalarda iştirak edib, 4 tarixi-sənədli filmin elmi məsləhətçisi olublar.

Bölmə əməkdaşları tərəfindən Biləv alüminium süxurundan alınan alüminium sulfat və alüminium zəyinə dair iki ixtira tərtib olunaraq Əqli Mülkiyyət Agentliyinə təqdim edilib.

Bölmənin sədri tədqiqat dövründə yerinə yetirilən qrant layihələrindən də danışıb, ötən il 2 respublika səviyyəli qrant layihəsinə yekun vurulduğunu deyib. Bildirib ki, 2-si beynəlxalq, 1-i respublika səviyyəli olmaqla, 3 qrant layihənin icrası hazırda davam etdirilir. Müxtəlif layihələr çərçivəsində hamiliyə götürülən ixtisasların tələbələrinin iştirakı ilə aktual mövzularda diskussiyalar təşkil edilib, praktik məşğələ aparılıb, seminarlar keçirilib.

Sonda İsmayıl Hacıyev şöbə və laboratoriyaların komplektləşdirilməsi, ixtisaslı elmi kadrların hazırlanması, elmi tədqiqatların keyfiyyətinin yüksəldilməsi və elmin istehsalatda tətbiqinə diqqətin artırılması ilə bağlı tapşırıqlar verib.

Tədbir çıxışlarla davam edib.

**AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi**

# Seçki marafonu

Parlament seçkiləri – 2020

**9 fevral 2020-ci il Azərbaycan Respublikası Milli Məclisinə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinə növbədənkənar seçkilər günüdür.**

**İmza vərəqələrində, habelə namizədlərin və siyasi partiyaların təqdim etdikləri sənədlərdə olan məlumatların düzgünlüyünün seçki komissiyaları tərəfindən yoxlanılması**

• Müvafiq seçki komissiyası Seçki Məcəlləsi və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanunu ilə müəyyənləşdirilmiş sənədlərdə, hər bir namizədin imza vərəqələrində olan məlumatların düzgünlüyünü və namizədlərin irəli sürülməsi prosedurunun Seçki Məcəlləsinin və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun tələblərinə uyğunluğunu yoxlayır. Müvafiq seçki komissiyası namizədlərin və siyasi partiyanın seçicilərin Seçki Məcəlləsinə və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununa uyğun olaraq təqdim etdikləri tərcümeyi-hala aid məlumatların və namizəd haqqında digər məlumatların düzgünlüyünü yoxlayır.

• Müvafiq seçki komissiyası Seçki Məcəlləsinə və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Qanuna uyğun olaraq təqdim edilmiş məlumatların və faktların düzgünlüyünü yoxlamaq məqsədilə müvafiq orqanlara müraciət edə bilər.

Həmin orqanlar seçki komissiyasının müəyyənləşdirdiyi müddətdə, lakin Azərbaycan Respublikası Milli Məclisinə seçkilərdə səsvermə gününə 40 gündən az vaxt qalmışsa, 1 gün müddətində, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərdə isə səsvermə gününə 30 gündən az vaxt qalmışsa, 1 gün müddətində yoxlamanın nəticələri barədə müvafiq seçki komissiyasına məlumat verməlidir.

Müvafiq seçki komissiyası öz qərarı ilə imza vərəqələrindəki imzaların düzgünlüyünü və müvafiq məlumatları yoxlamaq üçün ekspertlərdən ibarət işçi qrupları yarada bilər.

Həmin işçi qruplarına bu qrupu yaradan seçki komissiyasının üzvü sədrlik etməlidir.

Belə yoxlamaya Mərkəzi Seçki Komissiyasının müəyyən etdiyi məbləğdə haqq ödənilməklə ekspertlər, müvafiq orqanların mütəxəssisləri sırasından ekspertlər, habelə əhalinin qeydiyyatını həyata keçirən xüsusiləşdirilmiş orqan və təşkilatların mütəxəssisləri cəlb edilə bilər.

Onların rəyləri imza vərəqələrində olan məlumatların düzgün olub-olmamasını təsdiq edən əsas kimi qəbul edilir. Seçki komissiyaları imza vərəqələrində olan məlumatların düzgünlüyünü müəyyənləşdirmək üçün seçici siyahılarından və vətəndaşların qeydiyyat sistemindən istifadə edə bilərlər.

• İmza vərəqələri yoxlanılarkən müvafiq seçki komissiyasında namizədlər, onların səlahiyyətli nümayəndələri və siyasi partiyaların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər. Müvafiq seçki komissiyası imza vərəqələrinin yoxlanılması haqqında göstərilən şəxslərə qabaqcadan məlumat verməlidir. Seçki komissiyası namizədin və siyasi partiyanın göndərdiyi şəxsin həmin tədbirlərdə iştirakına etiraz edə və mane ola bilməz. Seçki qanunvericiliyinin maddələrində nəzərdə tutulan hallar istisna olmaqla, imza vərəqələrində olan bütün imzalar yoxlanılmalıdır.

• İmza vərəqələri müvafiq seçki komissiyasına təqdim edilənədək namizədi irəli sürənlərin imza vərəqələrində pozduqları imzalar o şərtlə yoxlanılmır və nəzərə alınmır ki, imza toplayanlar tərəfindən vərəqələrdə bu pozulmalar haqqında müvafiq qeydlər aparılsın.

• İmza vərəqələri yoxlanılarkən eyni adamın bir neçə imzası aşkar edilərsə, yalnız bir imza etibarlı, digər imzalar isə qeyri-düzgün sayılır.

**İmzaların yoxlanılması o vaxt dayandırılır ki, düzgün imzaların sayı namizədin qeydə alınmasına əsas verir və ya qalan imzaların sayı namizədin qeydə alınması üçün kifayət olmur. Yoxlamanın nəticələrinə görə seçici imzalarının düzgünlüyü və ya qeyri-düzgünlüyü təsdiqlənməlidir.**

***Seçki Məcəlləsinin 59.6-cı və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Qanunun 55.6-cı maddəsində göstərilənlərlə yanaşı, aşağıdakılar qeyri-düzgün imzalar hesab edilir:***

- müvafiq icra hakimiyyəti orqanının arayışı, yaxud Seçki Məcəlləsinin 59.2-ci və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Qanunun 55.2-ci maddəsinə uyğun olaraq seçki komissiyasının işinə cəlb edilmiş ekspertin rəyi əsasında seçki hüququ olmayan və məlumatları qeyri-düzgün göstərən seçicilərin imzaları;

- namizəd irəli sürülməsi haqqında müvafiq seçki komissiyasına bildiriş göndərilənədək imza vərəqələrinə daxil edilmiş seçici imzaları;

- Seçki Məcəlləsinin 57.1-ci və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 53.1-ci maddəsinin tələblərinin pozulması ilə əlaqədar etibarsız sayılmış imzalar;

- müxtəlif şəxslərin adından bir şəxs tərəfindən və ya bir şəxsin adından müxtəlif şəxslər tərəfindən qoyulmuş imzalar;

- imza vərəqəsinə əl yazısı ilə qoyulmayan və ya karandaşla qoyulan imzalar.

• İmza vərəqələrində seçici imzalarının qoyulması tarixində düzəliş edildikdə, bu imzalar o şərtlə düzgün sayılır ki, imza vərəqəsini təsdiq edən şəxslər həmin düzəlişləri təsdiqləmiş olsunlar.

**İmza vərəqələri imza toplayan şəxsin, habelə namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsinin əl yazısı qaydasında imzası ilə təsdiq edilməyibsə və ya səlahiyyətli nümayəndənin imzası qeyri-düzgündürsə, imza vərəqələrində olan bütün imzalar etibarsız sayılır.**

• Seçki Məcəlləsinin 59.7-59.9-cu və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 55.7-55.9-cu maddələrində göstərilən hallar istisna olmaqla, imza vərəqələrində Seçki Məcəlləsinin və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Qanunun tələblərinə uyğun gəlməyən yazı sırası aşkar edildikdə, yalnız bu sırada olan imza etibarsız sayılır.

• Seçki Məcəlləsinin 59.6-59.10-cu və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 55.6-55.10-cu maddələrinə əsasən imzanın etibarsızlığı müəyyənləşdirilməyibsə, imzaların düzgünlüyü və ya imzaların sayının hesablanmasının düzgünlüyü yoxlanılarkən imza vərəqələrində müəyyənləşdirilmiş qaydada edilən düzəliş və qeydlər imzaların etibarsız sayılması üçün əsas götürülə bilməz.

• Seçki qanunvericiliyinin maddələrinə uyğun olaraq etibarsız sayılan imzalar çıxıldıqdan sonra qalan seçici imzalarının sayı qeydiyyat üçün lazım olan saydan az olarsa, namizəd qeydə alınmır.

• Hər bir namizəd üzrə imza vərəqələrinin yoxlanılması nəticələri haqqında işçi qrupunun rəhbəri, müvafiq seçki komissiyasının həlledici səs hüquqlu üzvü tərəfindən protokol tərtib edilir, imzalanır və qərar qəbul olunması üçün seçki komissiyasına təqdim edilir. Protokolda seçicilərin yoxlanılmış imzalarının sayı, habelə əsası qeyd olunmaqla etibarsız sayılmış imzaların sayı göstərilir. Protokol seçki komissiyasının müvafiq qərarına qoşulur. Protokolun surəti namizədin qeydə alınması məsələsinə baxan seçki komissiyası iclasının başlanmasına azı 24 saat qalmış namizədə və siyasi partiyanın səlahiyyətli nümayəndəsinə verilir. İmzalar yoxlanılarkən lazımi sayda seçici imzalarının olmadığı aşkar edildikdə namizəd, habelə siyasi partiya işçi qrupunun rəhbərinin təsdiq etdiyi protokolun surəti ilə yanaşı, seçici imzalarının etibarsız sayılmasının əsasları göstərilməklə müvafiq qovluğun nömrəsi, müvafiq imza vərəqəsindəki sətrin nömrəsi qeyd olunan yoxlamanın nəticəsi barədə cədvəlin surətini də almaq hüququna malikdir.

**Namizədin qeydə alınması**

• Müvafiq seçki komissiyası imza vərəqələrini və namizədin qeydə alınması üçün lazım olan digər sənədləri qəbul etdikdən sonra Azərbaycan Respublikası Milli Məclisinə seçkilərdə 7 gün, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərdə isə 10 gün müddətində namizədin qeydə alınıb-alınmaması barədə əsaslandırılmış qərar qəbul etməlidir.

Siyasi partiyanın irəli sürdüyü namizəd qeydə alındıqda müvafiq seçki komissiyası qeydiyyat barəsində qərarında namizədin müvafiq siyasi partiya tərəfindən irəli sürüldüyünü göstərir. Qeydiyyat barədə və ya qeydiyyatdan imtina barəsində qərarda onun qəbul olunduğu tarix və vaxt göstərilir.

• Namizədin qeydə alınması barədə qərarın surəti müvafiq seçki komissiyası tərəfindən həmin qərarın qəbul edildiyi gündən etibarən bir gün müddətində namizədə, namizədi irəli sürmüş siyasi partiyanın səlahiyyətli nümayəndəsinə verilməli, qeydiyyatdan imtina olunubsa, həm də bunun əsasları göstərilməlidir.

**İmtina üçün aşağıdakılar əsas ola bilər:**

- imzaların toplanması zamanı Seçki Məcəlləsinin 57.1-ci və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Qanunun 53.1-ci maddəsinin tələblərinin pozulması;

- Seçki Məcəlləsinin 57-ci, 58-ci və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Qanunun 53-cü və 54-cü maddələrində göstərilən sənədlərin düzgün rəsmiləşdirilməməsi və ya olmaması;

- namizədlərin və siyasi partiyanın Seçki Məcəlləsinin 57-ci, 58-ci və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Qanunun 53-cü və 54-cü maddələrinə uyğun təqdim etdikləri məlumatların düzgün olmaması (siyasi partiyalar tərəfindən irəli sürülən namizədlərə bu əsas o vaxt tətbiq edilə bilər ki, göstərilən düzgün olmayan məlumatlar namizədin təqsirindən buraxılsın);

- namizədin müdafiəsi üçün təqdim edilmiş etibarlı (düzgün) seçici imzalarının lazımi saydan az olması;

- namizədin və siyasi partiyanın seçki fondunun yaradılması qaydasının və müvafiq seçki fondunun vəsaitinin xərclənməsi qaydasının pozulması (bu əsas yalnız o vaxt tətbiq edilə bilər ki, əvvəllər bu cür pozuntuya görə xəbərdarlıq edilsin və ya cərimə tətbiq olunsun);

- Seçki Məcəlləsinin 55-ci və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Qanunun 51-ci maddəsinin tələblərinin siyasi partiyanın səlahiyyətli nümayəndəsi, habelə siyasi partiya və ya namizəd tərəfindən pozulması (bu əsas yalnız o vaxt tətbiq edilə bilər ki, əvvəllər bu cür pozuntuya görə xəbərdarlıq edilsin və ya cərimə tətbiq edilsin – bu cür pozuntu digər məsuliyyətə səbəb olmursa);

- Seçki Məcəlləsinin 60.2-ci və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Qanunun 56.2-ci maddəsində göstərilən hallar qeydiyyatdan imtinaya dair qərarın çıxarılması üçün əsas götürüldükdə, qərar buraxılan səhvə (qüsura, pozuntuya) mütənasib olmalıdır;

- Seçki Məcəlləsinin 60.2.2 və 60.2.4-cü və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Qanunun 56.2.2 və 56.2.4-cü maddələrində göstərilən səbəblər olduqda, səhvlər və pozuntular müvafiq sənədlərdə namizəd və ya siyasi partiyaların səlahiyyətli nümayəndəsi tərəfindən düzəlişlərin edilməsi yolu ilə aradan götürülə bilərsə, müvafiq seçki komissiyası namizədi və ya siyasi partiyanın səlahiyyətli nümayəndəsini 24 saat müddətində bu haqda xəbərdar edir və onun tərəfindən müvafiq düzəlişlər edildikdən sonra namizədi qeydə alır.

***Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının mətbuat xidməti***

## Əlyazmalar Fondunun 15 illik fəaliyyətini işıqlandıran kitab çap edilib




*AMEA Naxçıvan Bölməsinin Əlyazmalar Fondunun direktoru, filologiya üzrə elmlər doktoru Fərman Xəlilovun "Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi Əlyazmalar Fondu" kitabı nəşr olunub.*

Bölmənin Rəyasət Heyətinin qərarı ilə çap olunan kitabda əlyazmaların toplanılması, sistemləşdirilməsi, kataloqlaşdırılması, qorunması, tədqiqi, nəşri və təbliği istiqamətində görülən işlər ətraflı şəkildə işıqlandırılıb.

Həmçinin fondda Azərbaycan, türk, fars, ərəb və rus dillərində mövcud olan tarix, dilçilik, ədəbiyyatşünaslıq, məntiq, fəlsəfə, riyaziyyat, astronomiya, tibb, coğrafiya və digər sahələrə aid qədim əlyazma və çap kitabları üzərində aparılan tədqiqat işləri, o cümlədən elmi əməkdaşlar haqqında bioqrafik məlumatlar nəşrdə verilib.

Naxçıvanla bağlı bir sıra nadir sənət nümunələrini, mədəniyyətimizin və tariximizin qaranlıq səhifələrini üzə çıxarıb təbliğ edən fondun 15 illik fəaliyyəti ilə bağlı oxucularda dolğun təsəvvür yaratmaq üçün kitabın sonuna fotoşəkillər də əlavə edilib.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

## Zona birinciliyinə vəsiqə qazanan şahmatçıların adları bəlli olub

*Naxçıvan Şahmat Mərkəzində 8, 10, 12, 14 və 16 yaşlı oğlan və qızlar arasında keçirilən şahmat üzrə Naxçıvan Muxtar Respublika seçmə yarışları başa çatıb.*



Seçmə yarışların yekun nəticəsinə əsasən 8 yaşlı oğlanlar arasında İlham Mahmudov, 10 yaşlı oğlanlar arasında Ramal Həsənov, 12 yaşlı oğlanlar arasında Zaur Babayev, 14 yaşlı oğlanlar arasında Seyid Hüseyn, 16 yaşlı oğlanlar arasında isə Əli Əliyev qalib adını qazanıblar.

Qızların mübarizəsində Ayla Zamanlı, Nigar Qənbərli, Almara İbrahimbəyli, Zərrin Məmmədova və Nəsrin Babayeva müvafiq olaraq 8, 10, 12, 14 və 16 yaşlı qızlar arasında hamıdan güclü olublar.

Qeyd edək ki, 3 gün davam edən Naxçıvan Muxtar Respublika seçmə yarışlarında qalib gələn şahmatçılar muxtar respublikanı Azərbaycan zona birinciliyində təmsil edəcəklər.

✍ **Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

Şərur rayonu, Arpaçay kənd sakini Məmmədov Vaqif Əli oğlunun adına olan JN-59A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Quliyev Qulu Behbud oğlunun adına olan evin 94 nömrəli texniki pasportu və MH-0060604 nömrəli çıxarışı itdiyindən etibarsız sayılır.

* * *

Abdullayev Davud Kazım oğlunun adına olan müharibə veteranı vəsiqəsi itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**

**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Ceyhun Məmmədov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1500. Sifariş № 11